*Mirzai Cabir Cəbrayıl oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru, SOCAR*
*Email: jabir.mirzai@gmail.com*

# İŞĞALDAN AZAD OLMUŞ ƏRAZİLƏRDƏ BAZAR MÜNASİBƏTLƏRİNƏ DÖVLƏT MÜDAXİLƏSİNİN MİNİMUMLAŞDIRILMASININ MƏQSƏDƏUYĞUNLUĞU MƏSƏLƏLƏRİ

Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərində bərpa işləri başa çatdıqdan və müvafiq infrastrukturun yaradılmasından sonra iqtisadi inkişaf istiqamətlərinin seçilməsi müstəsna əhəmiyyət kəsb edən bir məsələ kimi ölkəmizin qarşısında duracaq, bu xüsusda ilk və vacib addımlarından biri olaraq, burada dövlət siyasətinin, onun rolunun və ən əsası, iqtisadi proseslərə müdaxilə səviyyəsinin müəyyənləşdirilməsindən başlamalıdır.

Ümumiyyətlə, dövlət iqtisadi tənzimləmə sistemi bir-biri ilə əlaqəli komponentlərdən ibarətdir ki, onların səlis şəkildə əlaqələndirilməsi resurslardan səmərəli istifadə etməklə qarşıya qoyulmuş məqsədlərə planlaşdırılan müddət ərzində nail olmağa imkan verir. İqtisadiyyatın dövlət tənzimlənməsi prinsipləri ölkənin iqtisadi və sosial inkişafına yönəlmiş qərarların qəbulunda sistemli ardıcıllığı təmin edir. Bazar şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsi sosial-iqtisadi sistemi mövcud şəraitə uyğunlaşdırmaq məqsədi ilə səlahiyyətli dövlət qurumları və ictimai təşkilatlar tərəfindən həyata keçirilən qanunvericilik, icra və nəzarət tədbirləri sistemini əhatə edir. İqtisadi proseslərə dövlət müdaxiləsi ilk növbədə istehsalda proqressiv dəyişiklikləri, ədalətli rəqabət şəraitini, neqativ sosial və iqtisadi halların qarşısının alınmasını təmin etməlidir. Dövlətin iqtisadi proseslərə təsiri bazarın özünütənzimləməsinin dövlətin tənzimləyici alətləri ilə ahəngliyini nəzərdə tutur. Bu ahəngliyin effektivliyi isə bilavasitə dövlət nəzarət prinsiplərinin mülayimliyindən asılıdır.

Məlumdur ki, işğaldan azad olmuş ərazilərdə sağlam, səmərəli və dayanıqlı inkişafda olan iqtisadi zonanın yaradılması mütləq şəkildə külli miqdarda investisiyaların, xarici biznesin cəlb olunması hesabına həyata keçirilməlidir. Azərbaycan Dövləti əsas vəsaitləri ərazilərin bərpa olunması, infrastrukturun yaradılmasına yönəldərək nəticə etibarı ilə Qarabağda münasib bazar konyunkturasının yaranmasında böyük səylər göstərir. Qeyd etmək lazımdır ki, investisiya aktivliyi konyunktura formalaşdıran amillər çoxluğunda mühüm yer alır. İnvestorları  kapital qoyuluşuna şövq etmək asan iş deyil. Xüsusilə nəzərə alsaq ki, həmin ərazilər dünənə kimi qeyri-stabil, konflikt re-

gion hesab olunurdu, investorların cəlb olunması bir qədərdə çətinləşir. Eyni zamanda yerli sahibkarlıqda hələ tam əminliklə Qarabağ regionuna yatırım etməyə can atmır. Sözsüz ki, hər iki təbəqə, həm xarici və həm də yerli biznes mümkün riskləri qiymətləndirərək ehtiyat etməyə obyektiv səbəbləri var.

Fikrimizcə, elə bir vəziyyətdir ki, sahibkarlar dövlət tərəfindən müsbət siqnallar, dövlətin biznesə zəmanətlər paketi təklif etməyini gözləyirlər. Eyni zamanda, biznes bununla kifayətlənmir. Zəmanətlərdən əlavə biznes üçün vacib amillərdən biri də liberal mühitin yaradılmasıdır.

Qarabağ regionunun müharibədən sonrakı durumu, sosial-iqtisadi şərait, müsbət konyunkturanın formalaşdırılması yolları barədə mülahizələr tarixi ekskurs edərək analogiyalar axtarmaq istəyi yaradır. Bu baxımdan ötən əsrin 50-ci illərinə təsadüf etmiş "Alman iqtisadi möcüzəsini" bir misal olaraq, təhlil etmək yerinə düşər. Düzdür, Azərbaycan Almaniyadan fərqli olaraq, zəfər qazanmış, torpaqlarını işğalçılardan azad etmiş bir müzəffər ölkədir. Ancaq Almaniyanın o zamanlar tutduğu siyasət inkişaf konsepsiyası baxımından hesab edirəm ki, bizim üçün o təcrübədən faydalı paralellər aparmaq mümkündür.

Bu təcrübə ona görə maraqlıdır ki, Almaniyaya viranə qalmış ölkədən dünya iqtisadiyyatının liderlər sıralarında yer almaq üçün cəmi 8 il lazım olub. Almaniyanın dirçəlişinin əsas banisi kimi tanınan, ən səmərəli iqtisadi islahatlardan birinin müəllifi Lüdviq Erhard idi.

Erhardın əsas konsepsiyası iqtisadiyyatın ruhsuz mexanizm olmadığı, öz istəkləri, məqsədləri və ehtiyacları ilə yaşayan insanların üzərində dayandığı postulatı üzərində qurulmuşdur. Onun fikrincə, Almaniyanın iqtisadi dirçəlişinin əsasını azad sahibkarlıq təşkil etməli idi. Erhard yazırdı: "Mən iqtisadiyyatda ideal vəziyyəti adi bir insanın bu sözləri deyə biləcəyində görürəm: özümü müdafiə etmək üçün kifayət qədər gücüm var, öz taleyimə özüm cavabdeh olmaq istəyirəm. Sən, dövlət isə, mənim işlərimdən narahat olma, mənə o qədər sərbəstlik ver və işimin nəticəsindən əldə etdiyim sərvətdən o qədərini götür ki, mən özüm öz bildiyim kimi, ailəmin rifahını təmin edim".

Belə bir siyasətdə dövlətə sahibkarlıq fəaliyyətini inhisarçılıqdan, xarici rəqabətdən, yüksək vergilərdən və liberal bazara mane olan digər mənfi amillərin təsirindən qoruyucu funksiya verildi.

Müasir iqtisadi gerçəkliyi nəzərə alaraq iqtisadçılar müəyyən şərtlər əsasında tədricən liberallaşmanın depressiyaya uğramış regionlarda iqtisadi vəziyyətin dəyişməsinə müsbət təsir göstərə biləcəyini əks etdirən bir sıra modellər işləyib hazırlayıblar. Müsbət iqtisadi dinamikaya nail olmaqda sürətli liberallaşma və makroiqtisadi sabitləşmənin ən münasib islahat strategiyası olduğunu göstərmək üçün qərb institutları tərəfindən çoxlu sayda empirik tədqiqatlar aparılmışdır.

Bu tədqiqatların əsas nəticələri Dünya Bankının 1996-cı ildə hazırladığı "Plandan Bazara" hesabatında ümumiləşdirilmişdir. Bu sənədə əsasən bazarların liberallaşdırılması, xarici ticarət, yeni müəssisələrin yaradılması prosesi və düşünülmüş qiymət strategiyasını özündə cəm edən davamlıqlı iqtisadi siyasət yüksək nailiyyətlər göstərə bilər, hətta güclü bazar institutlarının olmadığı ölkələrdə belə.

Təcrübədən nəzəriyyəyə müraciət edərək bu məsələ üzərində klassik məktəbin görüşlərinə nəzər yetirək. Klassik siyasi iqtisad məktəbinin nümayəndələri tərəfindən irəli sürülən “görünməz əl” prinsipləri dövlətin iqtisadiyyata müdaxilə etməməsi doktrinasının əsasını təşkil etmişdir. Bu doktrinaya görə cəmiyyətin iqtisadi həyatı individlər - fərdi sahibkarlar tərəfindən qəbul olunmuş qərarlar əsasında idarə olunur və demək olar ki, dövlətin müdaxiləsini istisna edir. Bu doktrina azad sahibkarlıq kimi tanınır və yalnız öz mənafeyindən çıxış edən fərdlər millətin ümumi sərvətinin maksimum dərəcədə artmasına töhfə verir, postulatı üzərində durur. Bu məqsədə çatmaqda dövlətin rolu özəl təsərrüfat fəaliyyətinə imkan yaratmaqdan və bu fəaliyyəti təmin edən hüquqi aparat yaratmaqdan ibarət olmalıdır.

Proteksionizmin ideoloqları isə hesab edirlər ki, yalnız dövlət daxili iqtisadiyyatı dəstəkləmək iqtidarındadır, o, bu və ya digər səbəbdən hələ də effektiv ola bilməyən, lakin makroiqtisadi aspektdə son dərəcə vacib olan sənayeləri himayə etməli, subsidiyalaşdırmalıdır. Onlar hesab edirlər ki, dövlət bütün təsərrüfat subyektlərinin davamlılığı və sabitliyi naminə milli iqtisadiyyatın bütün sektorlarını və sahələrini öz üzərinə götürməyə borcludur. Belə şəraitdə dövlət çoxşaxəli iqtisadi və təşkilati funksiyaları yerinə yetirmək məcburiyyətində qalır.

İqtisadiyyatın dövlət tənzimlənməsinin bu iki radikal istiqamətli şərhi, təbii ki, çoxlu aralıq baxışları istisna etmir. Sözsüz ki, söhbət dövlətin iqtisadiyyata müdaxilə dərəcəsinin izahından, bürokratik təsirin məqbul forma və üsullarından, dövlət sektorunun optimal ölçüsündən gedir.

Hər iki istiqamətin qeyd etdiyimiz radikal formada özünü büruzə verəcəyi təqdirdə gələcəyi yoxdur. Dövlət təsirinin zəruriliyi ilə sahibkarlığın fəaliyyətində maksimal azadlığının təmin edilməsi arasında “qızıl orta” axtarışı iqtisadi tarix prosesinin ayrılmaz xüsusiyyətidir və təcrübə, əvvəlki səhvlər və gələcək proqnozlar nəzərə alınmaqla davamlı, dinamik şəkildə aparılacaqdır.

Deməli, azad ticarət və proteksionizm nümayəndələrinin fikir ayrılığı yaradan əsas məsələ cəmiyyətin iqtisadi sisteminin fəaliyyəti ilə bağlı bütün problemlərin həllində bazar mexanizminin özünü təmin etməsi məsələsi idi. İqtisadi və sosial inkişaf tarixi inandırıcı şəkildə sübut etdi ki, dövlət ən mühüm element kimi bazar iqtisadiyyatı sisteminə möhkəm inteqrasiya olunub və bu fakt, hətta azad ticarət doktrinasına ən çox sadiq olan iqtisadçılar tərəfindən də etiraf edilir.

Problem, təkrar edirik, yalnız dövlət müdaxiləsinin sərhədlərini, eləcə də onun həyata keçirildiyi üsulların effektivliyini müəyyən etməkdədir. Bazar sistemi nisbətən özünü tənzimləyən sistem kimi ən səmərəli, ən məhsuldar texnologiyadan istifadə etməklə məhsul və resursların qiymətlərini, istehsal edilməli olan məhsulların kəmiyyət və keyfiyyətini müəyyən edir, resursların rasional bölgü və istifadəsini təmin edir.

Lakin bazar mexanizminin özü bəzi iqtisadi proseslərin öhdəsindən gələ bilmir. Əvvəla, aydındır ki, rəqabət inhisarçılığı doğurur və bazar özü də onun məhsulların inhisarçı yüksək qiymətləri, istehsalın həcminin azalması, resurslardan qeyri-rasional istifadə, keyfiyyətin aşağı düşməsi, texniki tərəqqinin qarşısının alınması, iqtisadi güçün monopolist qüvvələrin əlində cəmləşməsi kimi mənfi nəticələrini məhdudlaşdıra bilmir. Bir mənalı olaraq, sadalanan problemlərin qarşısını yalnız dövlətin tənzimləmə

alətlərinin tətbiqi yolu ilə almaq mümkündür. Bu fəaliyyət, eyni zamanda, müəyyən sektorların birmənalı şəkildə dövlət mülkiyyətində qalmasını ehtiva edir. Belə mülkiyyətin forma və həcmi obyektiv suallar ortaya çıxarır. Dünya praktikasında bu suala cavab verilmir. İnkişaf etmiş ölkələrin bazar sistemlərindəki bütün xüsusiyyətlər və fərqliliklərlə birlikdə özəl sektorun payının dövlət üzərində üstünlük təşkil etməsi sadəcə ümumi bir prinsipdir. Dövlət mülkiyyətinin payı ayrı-ayrı ölkələrdə 20-40% və daha çox dəyişir. İsveçdə hətta 60%-ə çatır. Amma bu faizlər özü-özlüyündə heç nə ifadə etmir. Onların istehsal prosesində hansı rol oynadığını araşdırmaq lazımdır. Aydındır ki, dövlət və özəl sektorun mülkiyyətdə nisbəti müxtəlif ölkələr və müxtəlif inkişaf dövrləri və ölkənin üzləşdiyi konkret problemlər üzrə eyni ola bilməz.

Azərbaycanın iqtisadiyyatının üzləşdiyi problemlər, daha dəqiq desək qaytarılmış ərazilərdə sağlam sosial-iqtisadi ab-hava yaratmaq probleminin həllində araşdırdığımız aspekt həlledici rol oynaya bilər. Eyni zamanda, Qarabağda maksimal iqtisadi azadlıq iddiaları ölkənin iqtisadi gerçəkliyi ilə də uzlaşmalıdır. Belə vəziyyətdə dövlətin iqtisadiyyata müdaxiləsi siyasətində diferensial yanaşmanın tətbiq olunması həm regionun inkişafına, həm də onun tədricən milli təsərrüfat sisteminə rəvan inteqrasiyasına müsbət təsir göstərə bilər. Diferensial yanaşma dedikdə nəyi nəzərdə tuturuq? Qarışıq iqtisadiyyata malik ölkələrdə dövlət tənzimlənməsi fərqli diapazona malikdir. Onlar formalarına, üsullarına, iqtisadiyyata təsir miqyasına, təsərrüfatların iqtisadiyyatın dövlət tənzimlənməsini qəbul etmə qabiliyyətinə və həmçinin tətbiq olunduğu ərazilərə görə fərqlənirlər. Bu baxımdan dövlətin iqtisadiyyata müdaxiləsinin minimum zəruri və maksimum icazə verilən sərhədləri qeyd olunur.

Zəruri sərhədlərə əsasən bu istiqamətlər üzrə fəaliyyət nəzərdə tutulur:

- Bazar iqtisadiyyatının səmərəli fəaliyyət göstərməsinə şərait yaradan hüquqi bazanın və sosial atmosferin təmin edilməsi. Şəxsi kapitalın təkrar istehsalı üçün ümumi əlverişli şəraitin yaradılması, əsas səylərinin əmək, vergi, sosial, pul, gömrük qanunvericiliyinin və s. inkişafına yönəldilməsi, bazar münasibətlərinin müxtəlif subyektləri arasında yaranan münaqişələrin həllində arbitr.

- İctimai əhəmiyyətli məhsulun yaradılması. Ölkənin müdafiəsi, ictimai asayiş, bütün növ kommunikasiya şəbəkələrinin qurulması, təhsil sistemi, səhiyyə, elm, əlverişli təbii mühit və s. kimi sahələrin inkişafını dövlət öz üzərinə götürür və bu cür mallar adətən dövlət büdcəsindən maliyyələşir.

- Xarici təsirlərin nəzərə alınması: mənfi xarici təsirlərin neytrallaşdırılması, müsbət xarici təsirlərin stimullaşdırılması.

Dövlət işğaldan azad olmuş ərazilərdə iqtisadiyyata müdaxilə səviyyəsini məhz bu fəaliyyət istiqamətləri ilə məhdudlaşdırdığı halda ilk illərdə özəl sektorun mövqelərinin möhkəmləndirməsinə, bu sektorda korporativ yönümlü biznes münasibətlərinin formalaşmasına böyük töhfə vermiş olar.

Qarabağ regionunda sərbəst bazar prinsiplərinin geniş tətbiqinin məqsədəuyğunluğunun nəzəri və praktiki aspektlər prizmasından müzakirəsinə Azərbaycan dövlətinin bu sahədə mövqeyinə də nəzər yetirmək vacibdir. Belə ki, milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində iqtisadiyyatda özəl sektorun xüsusi çəkisinin artı-

rılması istiqamətində mühüm islahat proqramları həyata keçirilməsi vurğulanır. Qeyd olunur ki, dünyada üç qlobal meyl iqtisadiyyatda dövlət sektorunun mülkiyyət payının getdikcə azaldılmasını zəruri edir: birincisi, daha qlobal sənaye və daha sürətli texnoloji inkişaf idarəetmə orqanlarının çevik reaksiyasını və yeni tələblərə sürətli adaptasiyasını zəruri edir; ikincisi, idarəetmə və mülkiyyətçilik siyasətinə diqqətin artırılması bu aspektləri dəyər yaradılması prosesinin əsas hərəkətverici qüvvələrindən birinə çevirir; üçüncüsü, dövlət sektorunun maliyyələşməsinə ictimai nəzarətin güclənməsi dövlət müəssisələrinin dəyəryaratma prosesində iştirakını artırır. Bütün bu meyllər iqtisadi proseslərdə özəl sektorun iştirakının artırılması yolu ilə hər bir sektor üzrə və nəticə etibarilə, makroiqtisadi səviyyədə qarşıya qoyulan məqsədlərə çatmaq üçün zəmin yaradır.

Xülasədə qeyd etmək lazımdır ki, dövlətin iqtisadi proseslərə müdaxiləsinin azaldılmasının məqsədəuyğunluğunun əsaslandırılması həm təcrübə, həm də nəzəri aspektlərdən öz təsdiqini taparaq obyektiv bir mülahizə olduğunu göstərir. Bu siyasətin Qarabağ regionunda tətbiqinin səmərəliliyini azad iqtisadi zonaların bir çox yerlərdə özünü doğrultması ilə proqnozlaşdırmaq olar. Tənzimləyici subyekt tərəfindən bu cür əlverişli hüquqi bazanın formalaşması regionda müsbət makroiqtisadi və mikroiqtisadi təsir göstərir. Makroiqtisadi səviyyədə xarici kapitalın və texnologiyanın cəlb edilməsi istehsalın inkişafına, iqtisadi artıma və inkişafa müsbət təsir göstərir. Mikroiqtisadi səviyyədə isə əhali öz həyat keyfiyyətini yaxşılaşdırmaq imkanı əldə edir. Biznes sahibləri lisenziya almaq, vergi, gömrük və s. sahələrdə güzəştlər əldə edərək beynəlxalq əməkdaşlığın inkişafına töhfə verəcəklər, insan kapitalını inkişaf etdirməyə, xarici vəsaitləri cəlb etməyə imkan yaradacaqlar.

### İstifadə olunmuş ədəbiyyat:


1. Цибульникова В.Ю. Государственное регулирование экономики: учебное пособие / В.Ю. Цибульникова. — Томск : Эль Контент, 2014. — 156 с.

2. "World Bank. 1996. World Development Report 1996 : From Plan to Market. New York: Oxford University Press. World Bank. https://openknowledge.worldbank.org/handle/10986/5979 License: CC BY 3.0 IGO."

3. Румянцева Е.Е. Новая экономическая энциклопедия. М.: ИНФРА-М. 2006. 810 с.

4. Стиглиц Дж.Ю. Экономика государственного сектора. М.: Изд-во МГУ: ИНФРА-М, 1997.

5. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

6. Berger H. Germany and the political Economy of the Marshall Plan. / URL.: http://www.wiwiss.fu-berlin.de/institute/wirtschaftspolitik-geschichte/berger/publikationen/edited_volumes/HB_Germany_Marshall_plan.pdf.